# Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi

**Ölkəmizdə davamlı həyata keçirilən və əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş sosial-iqtisadi islahatlar demoqrafiya və əhali sakinliyinin inkişafında öz müsbət təsirini göstərməkdədir.**

Şərqi Avropa və MDB dövlətləri arasında ilk dəfə olaraq demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi məqsədilə ölkəmizdə Demoqrafik İnkişaf Konsepsiyası hazırlanmış və ulu öndər Heydər Əliyevin 9 dekabr 1999-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Bu Konsepsiya ölkəmizdə əhali sakinliyinin inkişafı sahəsində davamlı siyasətin hazırlanmasına və həyata keçirilməsinə təkan vermişdir. Əhalinin siyahıyaalınmasının yekunları və cari uçot məlumatları əsasında əldə olunan demoqrafik göstəricilər ölkənin sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının işlənib hazırlanmasında və həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

Dövlətimizin başçısı İlham Əliyev 7 sentyabr 2016-cı il tarixli Fərmanına əsasən 2019-cu ilin 1-10 oktyabr tarixlərində ölkəmizdə əhalinin növbəti siyahıyaalınması keçirildi. Həmin Fərmana uyğun olaraq siyahıyaalma ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunların işlənməsi, nəticələrin dərc edilərək yayılması Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə həvalə edilmişdir.

BMT-nin metodologiyasına görə ölkə ərazisində yaşayan bütün şəxslər haqqında sosial-iqtisadi, coğrafi-demoqrafik və etnik-mədəni əlamətlərinə görə məlumatların toplanması, ümumiləşdirilməsi və yayılması əhalinin siyahıyaalınmasının əsas məqsədidir. BMT-nin "Əhali və mənzil fondunun siyahıyaalınması-2020" tövsiyələrində əhalinin siyahıyaalınmasının üzv ölkələr tərəfindən ən azı 10 ildən bir keçirilməsi qeyd olunmuşdu.

2009-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasından ötən müddət ərzində baş vermiş ictimai-siyasi və iqtisadi proseslər demoqrafik vəziyyətə də təsir göstərərək əhalinin sayına, yerləşməsinə, sosial-iqtisadi, cinsyaş və digər əlamətlər üzrə tərkibinin dəyişməsinə səbəb olmuşdur. Siyahıyaalma nəticəsində demoqrafik vəziyyətin öyrənilməsi ilə əhali haqqında dolğun məlumatlar əldə edilir və həmin məlumatlardan hesablamaların aparılması və proqnozların hazırlanmasında, eləcə də elmi-praktiki işlərdə və təsərrüfat fəaliyyətində istifadə olunur.

Əhalinin sayı və onun strukturu daim zamana görə dəyişir (insan doğulur və ya ölür, yaşayış yerini dəyişir, nikaha daxil olur və ya boşanır, məktəbi və ya ali təhsil müəssisəsini bitirir, yeni peşəyə yiyələnir və s.). Bu dəyişikliklər bütünlükdə iqtisadiyyatın və cəmiyyətin inkişafına öz təsirini göstərir. Demoqrafik hadisələrin qanunauyğunluqlarının dərk edilməsi yalnız etibarlı məlumatlar əsasında mümkündür.



Qeyd edək ki, keçmiş ittifaq dövründə əhalinin siyahıyaalınmaları 1926, 1939, 1959, 1970, 1979, 1989-cu illərdə, müstəqillik dövründə isə 1999-cu və 2009-cu illərdə keçirilib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə bildirdi ki, hər bir ölkə üçün əhalinin siyahıyaalınması çox əhəmiyyətli hadisədir: "Ciddi hazırlıq prosesi həyata keçirildi. Siyahıyaalınmanın yekunlaşması üçün böyük işlər görülür. Əldə edilən nəticələr ölkənin qarşıdan gələn birinci onillik üçün sosial-iqtisadi planının qurulmasını təmin edəcək."

"Azərbaycan əhalisinin siyahıyaalınması hər on ildən bir həyata keçirilir" söyləyən A.Mirzəzadə qeyd etdi ki, bu ilki siyahıyaalınmaya çox ciddi hazırlıq görüldü: "Bu məsələ birbaşa dövlətimizin başçısı İlham Əliyevin nəzarəti altında idi. Ölkə Prezidentinin özünün siyahıyaalınmada iştirak etməsi bu prosesə verdiyi dəyərdən qaynaqlanır. Dövlət Statistika Komitəsi siyahıyaalınmaya ciddi hazırlaşmışdır. Gündəlik siyahıyaalınmanın gedişi barədə məlumat verilirdi. Mənim evimə iki nəfər siyahıyaalan şəxs gəldi. Hərtərəfli sorğu-sual etdilər. Mən ciddi hazırlığın getdiyini gördüm. Eyni zamanda, mümkündür ki, hansısa səbəbdən ya vətəndaş evdə olmayıb, yaxud da pasport qeydiyyatı ilə bağlı problem olub, həmin insanlara da müraciət edildi. Əlavə olaraq bir neçə gün də onların siyahıyaalınmaları üçün şərait yaradıldı. Ölkəmizdə siyahıyaalınmanın nəticəsini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, siyahıyaalınmanın nəticələri özümüzün daha yaxşı görməyə imkan verəcək."

A.Mirzəzadə dövlətimizin başçısı İlham Əliyevin "Ölkəmizin sosial-iqtisadi inkişafı demokrafik vəziyyətlə uzlaşır" fikrinə istinad edərək bildirdi ki, Azərbaycan siyahıyaalınmanın yüksək səviyyədə aparılmasının öhdəsindən gəlib: " Nəzərə alaq ki, torpaqlarımızın bir hissəsi işğal altındadır. Əhalimizin 12 faizi, bir milyon 200 mini məcburi köçkündür. Nəzərə alaq ki, ölkə iqtisadiyyatı sovet dönəmində SSRİ iqtisadiyyatına sırf bağlı idi. İqtisadiyyatı yenidən qurmaq lazım idi. Amma bununla belə qeyri-neft sektoru sürətlə inkişaf edir. Əhalinin sosial müdafiəsi gücləndirilir. Əmək haqları, pensiyalar artırılır. Cənab İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə həm görülən işlərə yekun vuruldu, həm də "gələn il çox ciddi iqtisadi proqramlar həyata keçiriləcəkdir" bəyanatının verilməsi göstərir ki, Azərbaycanı inkişaf gözləyir. Bu inkişafın da mərkəzində vətəndaş dayanır. Məqsəd vətəndaşın təhlükəsiz yaşaması, onun keyfiyyətli təhsil və tibbi xidmətlə təmin olunması, onun öz potensialını tam ortaya qoyması üçün zəruri şəraitin yardılmasıdır. Hesab edirəm ki, aparılan siyasət, hər bir vətəndaşın dövlətin diqqət və qayğısını öz üzərində hiss etməsi ona gətirib çıxarır ki, bu gün hər birimiz Azərbaycan vətəndaşı olmağımızla fəxr edirik. Bu nəticələr ulu öndər Heydər Əliyevin vaxtilə Azərbaycanın dövlətçilik siyasətinin əsaslarını düzgün qurmasından, ölkə Prezidenti İlham Əliyevin vətəndaşların maraqlarına xidmət edən siyasət aparmasından irəli gəlir."

2019-cu ilin mühüm uğurları sırasında Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlişini, 10 milyonluq ölkə kimi təqdimatımızı xüsusi qeyd etməliyik. Prezident İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezident Mehriban xanım Əliyeva 10 milyonuncu sakinin dünyaya gəlməsi münasibətilə Azərbaycan xalqını təbrik etdilər. Azərbaycan xalqına 10 milyonuncu vətəndaş sevincini yaşadan Mehriban Bakı şəhərində yaşayan valideynlərinə- (Ağdərə rayonu sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkünlər) Rauf Həsənova və Nigar Ocaqovaya ilk övlad səadətini yaşatdı. Həmin ərəfədə daim sevincimizə şərik olan qardaş Türkiyənin mətbuatında yazılan "Azərbaycan xalqının nüfuzu 10 milyona çatdı" xəbəri də Ocaqovları sevindirən xoş taleli qıza dost xeyir-duası kimi dəyərləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev dəfələrlə qeyd edir ki, müstəqilliyimiz illərində qazanılan uğurlarımızdan ən önəmlisi ölkədə demoqrafik inkişafın yüksəlişi, hər cür qayğı ilə əhatə olunan əhalinin sayının artmasıdır. Ölkədə sağlam cəmiyyətin formalaşması, ailə institutunun təkmilləşdirilməsinin nəticəsi olan əhalinin say artımı, eyni zamanda, Azərbaycanda iqtisadi inkişaf, sabitlik və vətəndaşların sosial rifahının yaxşılaşması istiqamətində illərdən bəri aparılan sosial islahatların məntiqi nəticəsidir. İqtisadi böhran illərində bir çox ölkələrdə müşahidə olunan əhalinin sayında hiss olunan azalma prosesindən fərqli olaraq respublikamızda demokrafik artım statistik rəqəmlərdə də əksini tapır. Dayanıqlı inkişaf şəraitində uğurlar qazanan Azərbaycan müsbət demoqrafik göstəriciyə görə də Cənubi Qafqazın lider ölkəsidir.

Əvvəldə də qeyd etdiyimiz kimi, ölkədə sosial sahədə inqilabi dəyişikliklər kimi qiymətləndirilən və hətta dünyanın inkişaf etmiş ölkələri üçün nümunə ola biləcək islahatların davamlı proses kimi diqqətdə saxlanılması əhalinin rifah halının daha da yüksəldilməsinə böyük təkan verməklə vətəndaşların artım tempinin qorunub saxlanmasına əminlik yaradır.

10 milyonuncu körpənin nənəsi, Xırdalan şəhərindəki 7 saylı məktəbin ibtidai sinif müəllimi Solmaz Ocaqovanın fikirlərini öyrənmək istədik:

-Əvvələ son aylarda həyata keçirilən sosial islahatlar üçün cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ailəmiz adından minnətdarlıq edirəm. Körpələrə daim diqqətlə yanaşan Mehriban xanım Əliyevanın insanlara göstərdiyi dəstəyi yüksək qiymətləndirərək körpənin adını Mehriban qoyduq. İstəyimiz odur ki, balaca Mehriban da xalqımıza, Vətənimizə layiq övlad kimi böyüsün. İnanırıq ki, balaca Mehriban da Birinci-vitse prezidet Mehriban xanım Əliyevanın qayğısını hiss edəcək. Məcburi köçkün kimi dövlətimizin diqqət və qayğısını daim hiss etmişik. Son günlərdə dövlət başçımızın davam etdirdiyi siyasətə uyğun olaraq həyata keçirilən islahatların müsbət nəticələrini ailəmizin bütün üzvləri hiss edir və bunun üçün cənab İlham Əliyevə təşəkkürünü bildirirlər.

Xırdalan şəhərindəki 7 saylı məktəbdə müəllim işləyən Mehribanın anası Nigar Ocaqova da bu ilin mühüm sevincinin onların ailəsi iləç bağlı olmasından qürur hissi keçirdiyini bildirdi. Respublikamızda uşaqlara, ümumilikdə hər bir vətəndaşa göstərilən diqqət və qayğıdan fərəh hissi keçiririk. Əhalinin siyahıyaalınmasına gəldikdə isə Azərbaycanda çoxlu sayda millətlərin nümayəndələri yaşayır. Ulu öndər Heydər Əliyev Azərbaycanın ən başlıca sərvətlərini qeyd edərkən qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən insanları xüsusi vurğulayırdı: "Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da-bütünlükdə hamısı azərbaycanlıdır. Azərbaycanlı sözü bizi həmişə birləşdirib." Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik ölkəmizin ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Dövlətimizin başçısı İlham Əliyevin ölkəmizdə keçirilən növbəti siyahıyaalınmada iştirak edərək siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırarkən Azərbaycanda əhalinin artmasının ölkəmizin mövqelərini möhkəmləndirdiyini xüsusi qeyd etmişdir.

**Nüsrət Məmmədov,**
***"İki sahil"***

*Yazı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçündür.*